# Alban-Udi Xristian Dini İcmasının üzvləri Xocavənddə alban məbədlərini ziyarət ediblər

Erməni işğalından azad edilən Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən qədim alban məbədləri uzun illərdən sonra əsl sahibləri olan udilər tərəfindən ziyarət edilib.





AZƏRTAC xəbər verir ki, Alban-Udi Xristian Dini İcmasının üzvləri noyabrın 4-də əvvəlcə ata-babalarından miras qalan Ağxaç kilsəsində olublar. Onlar burada dini ayin icra edərək, şamlar yandırıb, dualar oxuyublar.

İcmanın sədri Robert Mobili açıqlamasında bildirib ki, bu kilsə qədim alban mədəniyyətinə məxsus tikilidir: “Hadrut qəsəbəsində iki qədim alban məbədi var. Bunlardan biri Çinarlı kəndində yerləşən Ağxaç kilsəsidir, X əsrə aiddir. Digəri isə Müqəddəs Məryəm Ana kilsəsidir. O kilsə isə XII əsrdən qalan alban mədəniyyətinin yadigarıdır. İşğal ərəfəsində ermənilər kilsədə saxtakarlıq etməklə bəzi dəyişikliklərlə buranı özününküləşdirməyə çalışıblar. Erməni dilində yazılar yazıblar, altar hissəni dəyişiblər. Lakin nə etsələr də, daşlar üzərindəki tarixi dəyişə bilməzlər. Artıq tarixi ədalət bərpa olunub. 30 il müddətində torpaqlarımız erməni işğalında olduğu kimi, dini məbədlərimiz də əsirlikdə idi. Lakin müzəffər Ordumuzun gücü sayəsində artıq kilsələrimiz də azadlıqdadır”.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərdə geniş bərpa-quruculuq işlərinin aparıldığını söyləyən R.Mobili əmin olduğunu vurğulayıb ki, bütün tarixi-mədəni, dini abidələrimiz, o cümlədən məbədlərimiz tezliklə bərpa ediləcək.

Sonra icma üzvləri Müqəddəs Məryəm Ana kilsəsinə gəlib, burada da dini ayin icra ediblər.

Daha sonra Alban-Udi Xristian Dini İcmasının üzvləri Hünərli kəndində yerləşən alban məbədinə baş çəkiblər.

Ermənilər tərəfindən yararsız hala salınan dini məbədlə tanışlıq zamanı bildirilib ki, Ermənistan qədim alban məbədlərini özününküləşdirmək üçün məbədlərin üzərində erməni dilində yazılar yazmışlar. Lakin istəklərinə nail ola bilməmişlər. Ona görə də alban məbədləri işğal dövründə baxımsız qalmışdır. Bu məbədlərin baxımsız vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Düşmənin dini inanclara münasibəti göz önündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi. Onlardan cəmi ikisi qalıb, onlar da yarıdağılmış vəziyyətdədir. Həmin məscidlərdən də müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsələrini də pis günə qoyublar. Hünərli kəndindəki qədim alban məbədi buna bir nümunədir.

Vurğulanıb ki, Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur. Yararsız vəziyyətdə olan qədim alban kilsələri Azərbaycan dövləti tərəfindən yenidən bərpa ediləcək.

Azərbaycan.- 2021.-5 noyabr.- S. 14.